# JURNALİSTİKANIN NƏZƏRİYYƏSİ VƏ TƏCRÜBƏSİ

*Cahangir MƏMMƏDLİ*

## AZƏRBAYCAN TELEVİZİYASI MİLLİ MARAQLAR KONTEKSTİNDƏ

**РЕЗЮМЕ**

В статье анализируется место AzTV на азербайджанском телепространстве. В статье основное внимание уделяется освещению в AzTV национальных интересов и принципов азербайджанства. В статье отмечается, что как в информационной программах «Xəbərlər» так и в аналитических программных форматов отображаются все образцы профессионализма. Этот профессионализм привлекает внимание зрителя, обслуживая национальные интересы.

**Ключевые слова:** телевидение, национальные интересы, азербайджанство, программные форматы

**SUMMARY**

The article analyzes AzTV's place on the Azerbaijani TV channel. The article focuses on the national interests and principles of Azerbaijanism. The article notes that both in the news program "News" and in analytical software formats all the samples of professionalism are displayed. This professionalism attracts the viewer's attention, serving the national interests.

**Keywords:** television, national interests, Azerbaijan, software formats

Hər şeyin bir başlanğıcı olur. Əgər Azərbaycanın milli mətbuatı öz başlanğıcını "Əkinçi" kimi klassik məktəb səviyyəsinə yüksəlmiş bir müqəddəs qəzetdən alırsa, bu günkü polifonik səsli teleməkanımız da öz təməlini AzTV-dən qəbul etmişdir. Öz başlanğıcını 1956-cı il fevralın 14-dən alan Azərbaycan televiziyası uzun müddət ideoloji kanonlar çərçivəsində fəaliyyət göstərməyə məcbur olsa da, xalqımızın, millətimizin mədəni, ictimai,

siyasi, iqtisadi inkişafı yolunda misilsiz xidmət göstərmiş və göstərməkdədir. Ulu öndərimiz Heydər Əliyev hələ 1996-cı ildə bu televiziyanın 40 illik yubiley təntənəsindəki çıxışında demişdi: "Azərbaycan milli televiziyası 40 il ərzində böyük yaradıcılıq yolu keçmiş və xalqımızın, respublikamızın həyatında əvəzsiz rol oynamışdır... Ötən 40 ildə xalqımızın iqtisadiyyatının, mədəniyyətinin, elminin inkişafında televiziyanın fəaliyyəti əvəzsiz olmuşdur." Daha bir il keçəcək və Ümummilli liderimiz teleradio işçilərinin peşə bayramında onlara ünvanladığı təbrik məktubunda bu televiziyanın fəaliyyət konturlarını belə dəqiqləşdirəcək: "Azərbaycan televiziya və radiosu zəngin və şərəfli inkişaf yolu keçərək xalqımızın yüksək əxlaqi dəyərlərinin, ictimai-siyasi ideallarının, mədəniyyətinin, arzu və istəklərinin ifadəçisinə çevrilmişdir. Bu gün milli televiziya və radiomuz, sözün əsl mənasında xalqın tribunasıdır". Bu sözlərin deyilməyindən on ilə qədər bir zaman keçib, amma sanki Azərbaycan televiziyasının bu günkü mənzərəsinin dəqiq qiymətidir. Və bir halda ki, on il əvvəl deyilən bu fikir indinin özü üçün də tam mənası ilə müasir səslənir, onda mən Ümummilli liderimizin həmin təbrik məktubundan bir sitatı da gətirməli oluram: "Müstəqilliyimizin əbədiliyinin və milli dövlət quruculuğu prosesinin dönməzliyinin təbliğində, müstəqil Azərbaycan dövlətinin indiki dirçəliş mərhələsində televiziya və radionun fəaliyyəti əvəzolunmazdır. Azərbaycan həqiqətlərinin, xüsusən də Ermənistanın ölkəmizə qarşı təcavüzkar müharibəsinin, qaçqınların ağır sosial-iqtisadi vəziyyətinin obyektiv şəkildə yayılmasında və beynəlxalq ictimaiyyətə çatdırılmasında efir işçilərimiz öz vəzifələrini layiqincə yerinə yetirirlər". Azərbaycan mediasını daim diqqətdə saxlayan Heydər Əliyevin bu sözləri Azərbaycan televiziyasının həm də tipoloji xarakterini müəyyənləşdirir. Dövlətçiliyimizin, müstəqilliyimizin , milli-mənəvi dəyərlərimizin qorunması və daha da inkişafında, həyatımızın bütün sahələrinə nüfuz etməsi ilə bütöv bir millətin, xalqın etimadını qazanmasında göstərdiyi xidmət bu televiziyanın azərbaycançılığa sədaqət prinsipindən irəli gəlir və onun teleməkanımızdakı tipaloji xarakterini müəyyən edir. Bizcə, daha dəqiq desək,elmi-nəzəri fikrin tələblərinə görə hər hansı bir media qurumuna qiymət verərkən ilk növbədə onun tipoloji xarakteri nəzərə alınmalıdır. Bu cəhət nəzərə alınmayanda, yaxud qəsdən "unudulanda"Azərbaycan televiziyası kimi xalqa və dövlətçilik prinsiplərinə xidmət missiyasını rəsmi olaraq (!) çiyninə götürmüş bu qurumun obyektiv qiymətini vermək mümkün deyil. Azərbaycan televiziyası bütün dövrlərdə millətin yanında olduğu kimi, bu gün də həmin missiyanı şərəflə yerinə yetirməkdədir. Bu gün istər onun rəhbərliyində, istərsə də yaradıcı kollektivində aparıcı bir xət mövcuddur: dövlətçiliyimizin keşiyində durmaq,millətə vətən sevgisi aşılamaq, müstəqilliyimizlə qürur duymaq, milli mənəvi dəyərlərimizi dünya arenasına çıxarmaq, düşmənin düşmən olduğunu vizual şəkildə göstərmək, inkişafımızın göstəricilərini təbliğ etmək və .s. Bütün





bunlar necə və hansı peşəkarlıqla ifadə olunur? Bu suala cavab almaq üçün AzTV-nin proqram setkasına nəzər salmaq və bu setkadakı proqram formatlarının efir faktlarına diqqət etmək kifayətdir.

AzTV bir sıra proqram və verilişlərindən əvvəl mümkün olan bir neçə dəqiqə müddətində bu televiziyanın özünün çox böyük ustalıqla istehsal etdiyi bir videoçarxı tamaşaçıya təqdim edir. Bu videoçarxda Azərbaycanın paytaxtında və regionlarında özünü göstərən quruculuq işləri, Gəncəmizin, Sumqayıtımızın,ayrı-ayrı rayonlarımızın sürətli inkişafını, fəxr edilməyə layiq olan infrastrukturumuzun nümayişi yüksəlişimizin göstəricisi olmaqla yanaşı, Azərbaycan televiziyası əməkdaşlarının Vətən sevgisinin unikal ifadəsidir. Bu videoçarx görüntülərə uyğun çox təsirli bir musiqi ilə müşayiət olunur və ölkəmizin inkişafına hər kəsdə iftixar hissi oyadır...

Əlbəttə, hər bir media qurumunun əsas vəzifələri sırasında cəmiyyəti informasiya ilə təmin etmək ilkin yerdə dayanır. Azərbaycan televiziyasının "Xəbərlər" proqramının qiyməti dünyada baş verən hadisələrə jurnalist mövqeyindən öncə, vətəndaşlıq istiqamətindən yanaşması ilə ölçülür. Mən bu yerdə bir daha hər bir media qurumunun tipologiyasından doğan informasiya siyasətini xatırlatmaq istərdim. Azərbaycan televiziyası əslində bir dövlət media vasitəsi olaraq dövlətçiliyə və azərbaycançılıq ideologiyasına bağlıdır. Bu televiziyaya hər hansı bir baxış xətti mütləq onun informasiya siyasətini nəzərə almalıdır. Dövlətçilik və azərbaycançılıq kimi müqəddəs anlayışlar olan yerdə bu televiziyaya baxış bucağı heç vaxt şəxsi ambisiyalara boyun əyməməlidir. Azərbaycan televiziyasının istisnasız olaraq bütün yaradıcı kollektivi hər bir proqram formatında və *xüsusi olaraq* informasiya proqramlarında Azərbaycan deyib də göz bəbəyimiz kimi qorumalı olduğumuz bu dövlətin maraqlarını, onun xalqının *milli maraqlarını* təmsil edir. Qərbin bizə təlqin etdiyi "əvvəlcə peşə marağı, sonra milli maraq" kimi özünün tamamilə imtina etdiyi bədnam bir formulaya hansısa xarici qrant naminə qəsdən, fəsadlarını əvvəlcədən bilə-bilə «əməl etmək», yaxud da bu bədnam nəzəriyyəni praktikaya calamaq, ən yumşaq halda, Vətən sevgisini qranta satmaq kimi bir haldır. Çox şükürlər olsun ki, bir sıra «nəzəriyyəçilərin» tələblərinə uymayan Azərbaycan televiziyası səngərdə keşik çəkən bir əsgər timsalında öncə Vətən sevgisini, sonra vətəndaş, sonra jurnalist tezisi ilə milli maraqlara bağlılığını sübut etməkdədir.

Bir halda ki, biz bu anda dolayısı yolla olsa da, televiziyanın ideoloji sahədə xidmətinə də toxunduq, əvvəl vətəndaşlıq, sonra jurnalist məsələsini qaldırdıq, onda bu fikrin ətrafındakı praktikaya müraciət etmədən keçinə bilmərik. Misal üçün dünyanın güc dövlətləri sırasında ilk sıralarda (ilk sırada) dayanan Rusiyanın populyar TV kanallarına, xüsusilə RTR dövlət televiziyasına, ictimai hesab edilən ORT kanalına, müstəqil NTV-yə, guya MDB məkanını əhatə edən "Mir" telekanalına diqqət edək. Biz bu kanalları hər axşam diqqətlə izləyən bir jurnalistika adamı kimi qəti şəkildə görürük

ki, onların hamısı Rusiyanın dövlət maraqlarını, milli ideologiyanı son dərəcə qabarıq şəkildə ifadə etməkdədir. Görkəmli peşəkar televiziya jurnalisti Dmitri Kiselyovun özünün elan etdiyi kimi, şəxsən Prezident V.Putinin tapşırığı ilə yaratdığı "Vesti nedeli" kimi hər bazar günü iki saatlıq analitik proqram başdan-ayağa ideoloji olub, yalnız Rusiyanın dövlət və milli maraqlarını qabardır. Adlarını çəkdiyim telekanalların aparıcıları V.Solovyov, A.Şeynin, O.Skabayeva, Y.Popov və bir çoxlarının apardıqları tok şoular birbaşa və istisnasız olaraq Rusiyanın dövlət ideologiyasını möhkəmlətməyə xidmət edir. Oxuculara bircə faktı xatırlatmaq istərdim: Türkiyədə vurulan Rusiya təyyarəsi ətrafında yaranan qalmaqalda bütün Rusiya TV kanalları obyektiv, qeyri-obyektiv şəkildə Rusiya-Türkiyə münasibətlərini heçə endirdilər! Bir az da keçdi və təyyarə ətrafında iki dövlətin başçılarının sakit məcrada müzakirələrindən sonra həmin TV kanalları, həmin tok-şoular Türkiyə-Rusiya münasibətlərinin əvvəlki istiqamətinə qayıtdılar. Bütün bunlar Rusiya TV kanallarının - biz bəyəndik, ya bəyənmədik- dövlət maraqlarına xidmət missiyasından doğur. Televiziyalara diqqətsizlik faktının Türkiyədə 2016-cı ilin iyunundakı faciənin meydana çıxmasına səbəb olduğunu da unutmaq olmaz.

Azərbaycan televiziyasının kollektivi tarixin bu dərslərini yaxşı dərk edib də milli ideologiyamızın media qarantı missiyasını sədaqətlə yerinə yetirməkdədir.

Hətta bu yerdə biz informasiya təhlükəsizliyi anlayışını da xatırlaya bilərik və bununla da belə bir nəticəyə gəlmək olar ki, "əgər Azərbaycan Respublikasının milli təhlükəsizliyibu gün ümumölkə səviyyəsində hərtərəfli informasiya təhlükəsizliyinin təmin olunmasından əhəmiyyətli dərəcədə asılıdırsa" [3, s.208], onda Azərbaycan televiziyasının rolunu bu sahədə də qiymətləndirmək lazımdır.

Bu mənada «Xəbərlər» informasiya proqramı tamaşaçını birinci növbədə ölkəyə, dövlətə bağlı rəsmi xəbərlərlə tanış edir, bu dövlətin daxili, xarici siyasətini operativ işıqlandırır, öz zəngin tematikası ilə gün ərzində baş verən hadisələrin xronikasını təqdim edir. Bu proqram Azərbaycanın dünyaya tanıdılmasının, xalqımızın taleyüklü problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, müharibənin hər gün törədilən yeni hadisələrinin beynəlxalq aləmə çıxarılmasının, Azərbaycanın haqlı mövqeyinin ortaya qoyulmasının əsas vasitəsidir. Bu proqram həmçinin milli ruhu, milli əxlaqı, milli-mənəvi dəyərləri formalaşdırır, milli ideologiyamızın təbliği kimi nəcib missiyanın daşıyıcısı rolunu oynayır. Bu proqramın ölkə daxilində və xaricdə bir çox müxbir məntəqələri var. Hazırda Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan, İran, Qərbi Avropa, ABŞ, Kanada, Mərkəzi Asiya, Ərəb ölkələri, Şimalı Afrika və digər ölkələrdə "Xəbərlər"in müxbir postları fəaliyyət göstərir. Xüsusi qeyd etmək istərdim ki, bu müxbirlərin həmin çoxsaylı





ölkələrdən hazırladıqları informasiyalarda onların hamısının vətəndaş fəallığı, azərbaycançılıq ideallları özünü göstərməkdədir. Bütövlükdə maarifçilik missiyasını öz üzərinə götürmüş "Xəbərlər" informasiya proqramı Milli Elmlər Akademiyası, tədris müəssisələri və xüsusən Bakı Dövlət Universitetindəki tədbirləri daim diqqət mərkəzində saxlayır. Bu cəhətlərinin təqdim olunan xəbərlər ölkəmizdə elmin, tədrisin, universitetimizin inkişaf göstəricilərini tamaşaçıya çatdırır.

"Xəbərlər" informasiya proqramı tarixən peşəkar reportyorları ilə tamaşaçını razı salmışdır. Proqramın Firuzə Nadir, Almaz Mahmud kimi bu günkü peşəkar reportyorları təqdim etdikləri hadisəni təkcə hadisə kimi deyil, bir sıra hallarda həm də bu hadisənin mahiyyətini açan analitik təhlil formatları ilə diqqəti cəlb edirlər. Bu reportyorlar üçün hər bir süjetin daxili məzmununda Vətən sevgisi, dövlətçiliyimizə, milli maraqlara münasibət hər şeydən öncədir. Görünür, həm də ona görə ki, onların hər biri hələ Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsil alarkən bu peşənin nəzəri və praktik istiqamətlərinin birbaşa dövlətçiliyimizə bağlı istiqamətlərini sevgi ilə mənimsəmişdir. "Xəbərlər"in əməkdaşı Firuzə Nadirin hər hansı önəmli bir hadisə ilə bağlı təhlili reportajları öz peşəkarlıq keyfiyyətləri ilə peşəni sənətə çevirmək məzmunu daşımaqdadır.

Geniş auditoriyaya malik "Xəbərlər" proqramının studiyasında üç bölmə - Azərbaycan, rus və ingilis bölmələri fəaliyyət göstərir. Deməli, AzTV-dən xəbərlər üç dildə yayımlanır. Və eyni zamanda bu xəbərlər televiziyanın vebsəhifəsinə qoyulur (www.aztv.az).

Televiziyada xəbər proqramı aparıcı yer tutur. Çünki "cəmiyyətin həyatında fəal iştirak edən televiziyada verilən xəbərlər fərdlərin, ayrı-ayrı qrupların təsəvvürlərini biçimləndirməklə bərabər, onların həyat tərzini müəyyən edir və dünyagörüşünün zənginləşdirilməsində iştirak edir" [1, s. 157-158].

Etiraf edək ki, Azərbaycan Milli Televiziyası bütün teleməkanımız üçün bir yaradıcılıq məktəbidir. Yuxarıda qeyd etdiyimiz kimi, bu yaradıcılıq məktəbi öz başlanğıcını 60 il bundan əvvəldən alıb da, müasir günlərimizdəki idealları, peşəkarlıq xarakteri ilə jurnalistikamıza çox böyük səmərə verir. Azərbaycan televiziyasının "Xəbərlər" proqramı bir məktəb olaraq hadisələrə TV yanaşmasını, qərəzsizliyi, balanslılığı necə qorumaq, jurnalistə necə vicdanlı və ədalətli olmaq prinsipini öyrədir. Bu proqram öz üslubunu və tematikasını bu gün daha da zənginləşdirmişdir. Bu proqramın üslubu aydın, qayəsi və estetik idealı azərbaycançılığa söykənən, zəngin tematikası ilə həyatımızın bütün məqamlarını əhatə edən mahiyyəti var. Bütün bunlar artıq bir məktəb təşkil etməkdə və bütövlükdə milli teleməkanımıza yaradıcılıq yolu göstərməkdədir. Bu yaradıcılıq məktəbinin "Xəbərlər" proqramında peşəkarlığın yüksək göstəricilərinə sahib olmuş xəbər aparıcıları yetişmişdir. "Xəbərlər"in Dilarə Səlim, Ruslan Həsənov, Rüfət Həmzəyev kimi peşəkar

aparıcıları öz maneraları, təqdim etdikləri xəbər süjetlərinin xarakterinə, mahiyyətinə münasibətləri, xüsusilə - hər kəsin etiraf etdiyi kimi- Azərbaycan dilinə yaradıcı yanaşma tərzi ilə, dilimizin leksikasına, sintaksisinə hörmət prinsipi ilə müasir media nəslinə bir nümunə rolu oynayır. Təkcə "Həftə" proqramının aparıcısı Rövşən Məmmədovun peşəkarlıq bacarığına diqqət etmək kifayətdir ki, AzTV-nin analitik verilişlərinin nümunə rolu təsdiq edilsin. Yeri gəlmişkən onu da qeyd edək ki, "Həftə"nin aparıcısı Rövşən Məmmədov bir tərəfdən praktik jurnalist kimi, digər tərəfdən jurnalistikanır nəzəri problemləri ilə məşğul olan istedadlı bir alim kimi öz bacarığın göstərməkdədir.

Elə bu yerdə biz əməkdar jurnalist Q.Əsgərzadənin məqaləsindən bir məqama diqqət çəkmək istərdik: ...son dövrdə AzTV və İTV-nin bəzi aparıcıları heç də tanınmış alimlərdən geri qalmırlar. Onlar dəvət etdikləri qonaqlarla az qala mütəxəssis səviyyəsində müsahibələr aparırlar. Məsələn, "Həftə", "Günün nəbzi" proqramlarının aparıcısı Rövşən Məmmədovu efirdən izləmək adama zövq verir. Onun səlis nitqi... bir neçə dil bilməsi, sadəliyi, təvazökarlığı tamaşaçını ekran qarşısında saxlayan başlıca amillərdir" [2].

Azərbaycan Televiziyasının ən mühüm verilişlərindən biri olan "Həftə" proqramı hər həftənin bazar günü, saat 20.00-da efirə çıxır. Verilişdə ölkədə və dünyada yaşanan ictimai-siyasi, sosial-iqtisadi hadisələr ətraflı təhlil olunur, prezident İlham Əliyevin istər ölkə daxili, istərsə də beynəlxalq münasibətlər sistemində fəaliyyəti, çıxışları geniş şərh edilir, çoxsaylı faktlardan, ekspert rəylərindən yararlanmaqla maraqlı reportajlar hazırlanır. Bununla yanaşı, "Həftə" proqramına daha çox ölkənin ictimai – siyasi həyatında diqqət çəkən hər hansı hadisə ilə bağlı tanınmış mütəxəssislər, dövlət rəsmiləri də qonaq qismində dəvət edilir ki, bu da mövzunun daha əhatəli və sistemli şərh olunması, baş vermiş hadisəyə ekspert münasibətini öyrənmək, auditoriyaya daha dolğun məlumatların çatdırılması baxımından mühüm önəm kəsb edir. Bir məqam da xüsusi olaraq qeyd olunmalıdır ki, veriliş özlüyündə yalnız siyasi prosesləri deyil, sosial, iqtisadi, mədəniyyət, idman sferasında yaşanan ən maraqlı, mühüm əhəmiyyəti ilə seçilən mövzuları əhatə etməyə çalışır. Bir sözlə, "Həftə" verilişi yola salmağa hazırlaşdığımız hər həftənin ümumi mənzərəsini yaratmağı qarşısına məqsəd qoyub və buna da dil – üslub normalarına, analitik janrın tələblərinə və peşəkar yaradıcılıq prinsiplərinə əməl etməklə nail olur. Nəzərə alsaq ki, Azərbaycan Televiziyası dünyanın az qala bütün ölkələrində geniş yayım arealına malikdir, deməli, bu veriliş də ölkəmizin dinamik inkişafı, Azərbaycanın ictimai-siyasi, sosial – iqtisadi həyatı barədə mühüm məlumatları yalnız daxili deyil, həm də xarici auditoriyaya dolğun şəkildə çatdırır.

Onu da əlavə edək ki, Azərbaycan Televiziyasının efirində ictimai - siyasi çaları ilə diqqəti cəlb edən veriliş yalnız "Həftə" deyil. Bu sıraya hər





gün yayımlanan və müxtəlif sahələr üzrə çalışan dövlət rəsmilərini, tanınmış ekspertləri, elm adamlarını dəyirmi masa ətrafına toplayan "Günün nəbzi" verilişini, həmçinin ekspertlərlə yanaşı hər müzakirədə təxminən 50-60 nəfərlik auditoriya ilə tamaşaçıların görüşünə gələn və tamaşaçıların da suallar ünvanlamasına, xüsusən gənclərin öz fikirlərini bildirməsinə, debatda iştirak etməsinə geniş imkan yaradan "Əsas məsələ" tok şousunu, eləcə də dünyada yaşanan ən mühüm siyasi, iqtisadi hadisələri şərh edən "Bizim planet" verilişini, o cümlədən aqrar sektorda diqqəti cəlb edən yeniliklərdən bəhs edən, ölkənin aqrar siyasətinin əsas istiqamətlərini və əldə olunan nəticələri tamaşaçıların diqqətinə çatdıran "Kənd saatı" proqramını əlavə etmək olar.

Qeyd edək ki, bu günkü Azərbaycanın gerçəkliyini, problemlərini ictimai müzakirə müstəvisinə çıxarıb onların həlli yollarını göstərmək, bəzən hakimiyyətin yüksək eşalonundakı məmurların özlərinin iştirakı ilə ictimai maraq doğuran məsələlərə münasibət bildirmək yuxarıda haqqında bəhs etdiyimiz analitik proqramların əsas mahiyyətini təşkil edir.

Azərbaycan Televiziyasının efir setkasında özünə yer tapan digər proqramlar - "Təmas nöqtəsi", "Azərbaycan tarixi", "Ovqat", "Azərbaycan Respublikasına xidmət edirəm", "Hərb tariximizdən", "Retro", "Bu axşam", "Sağlam olaq", "Yaradanlar və yaşadanlar", "Sevilənlər", "Müasir Azərbaycan gənci", "Mən də uşaq olmuşam", "Turan", "Muğam dünyamız", "Palitra Art", "Tam fərqli", "Tələbə dünyası", "Elm və innovasiya" və s. kimi verilişlər, o cümlədən "Nə? Harada? Nə vaxt?", "Mən Azərbaycanlıyam", "Parlaq zəka", "Breyn rinq", "61", "Əlaçı" kimi intellektual proqramlar yayımlanır. Hansı mövzuda, hansı tematikada olur-olsun, bu proqramların hamısı azərbaycançılıq ideologiyasının mahiyyətinə xidmət etmək, cəmiyyətin mənəvi tərbiyəsini yüksəltmək məqsədi daşımaq kimi amalları özündə birləşdirir.

Etiraf edək ki, Azərbaycan televiziyasının çiyninə çox böyük yük düşür. Ordumuzun gücü, xalqın öz ordusuna, onun Baş komandanına inamı və bunun efir təqdimatı televiziyanın çox vacib tematikalarından biri və bəlkə də birincisidir. Vətən uğrunda canından keçən şəhidlərimizin qəhrəmanlığı, onların Azərbaycan sevgisi bu televiziyanın xəbər süjetlərindən tutmuş, telefilm kimi mürəkkəb yaradıcılıq formatlarınadək hər anda öz ifadəsini tapmaqdadır.

Telefilmdən söhbət düşmüşkən deyim ki, Azərbaycan televiziyasında yaradılan telefilmlərin də hamısının mahiyyətində dövlətçilik mənafeyi dayanır. Televiziyanın efirində gördüyümüz bu sənədli filmlər ordumuzun inkişafı, əsgərlərimizin şücaəti və qələbəyə inamı, milli qəhrəmanlarımızın Vətən sevgisi, böyük sənət sahiblərinin cəmiyyətə örnək olan mənəvi dünyası və s. kimi onlarca mövzunu əhatə etməkdədir. Bu şirkətdə televiziyanın poetikasına, dərindən bələd olan, rejissorluq fəaliyyətilə tamaşaçı sevgisi qazanmış Hikmət Yaqubov bədii rəhbər kimi çox fəal iş görməkdədir.

AzTV-də İctimai-Siyasi Proqramlar, "Ədəbi-dram verilişləri", Musiqi və əyləncəli proqramlar, Maarifçilik, Uşaq və Gənclik Proqramları, Hərbi-vətənpərvərlik verilişləri aktual, cəmiyyəti düşündürən mövzular təqdim edirlər. "Azərbaycantelefilm" Yaradıcılıq Birliyi bir-birındən maraqlı sənədli filmlər və tamaşalar təqdim edir.

Azərbaycan Televiziya və Radiosunun Səsyazma Evi, Musiqi kollektivləri də fəaliyyət göstərir. İllərdir öz reytiniqni qoruyub saxlayan və geniş tamaşaçı kütləsi qazanan "Səhər" musiqi-informasiya proqramına maraq təkcə öz daxilində deyil, eyni zamanda ölkənin hüdudlarından kənarda da çoxdur. "Azərbaycantelefilm" Yaradıcılıq Birliyi şəhidlərimizin tipik obrazlarını yaradan və bununla da milli qəhrəmanlarımıza xalq məhəbbətini canlandıran filmləri ilə çox böyük vətəndaşlıq işi görməkdədir. Bu yaradıcılıq birliyinin Arif Alışanovun ssenarisi əsasında ərsəyə gətirdiyi "Xocalı soyqırımı" televiziya filmi haqqında danışarkən, mən tam cəsarətlə deyərdim ki, Azərbaycan telemühitində Xocalı faciəsinin miqyasını, qətliamın genezisini dünyanın aparıcı dövlətlərinin çoxsaylı aparıcı media nümayəndələrinin sinxronları ilə açan və dünyaya tanıdan ikinci belə yüksək peşəkarlıq nümunəsi tanımıram. Xocalı faciəsinin dünyaya tanıtımının çox səmərəli formatı olan bu filmin təsir gücü uzun müddət tamaşaçının yadından çıxmır. Xüsusi qeyd edərdim ki, bu film Xocalı faciəsinin dünyaya tanıtım təşəbbüsü ilə Leyla xanım Əliyevanın irəli sürdüyü "Xocalıya ədalət" kampaniyasının çağırışına xidmət missiyası daşıyır.

Biz Azərbaycan televiziyasının "Səhər" proqramı barədə ayrıca danışmaq istərdik. Bu musiqili- informasiya və bir az da analitik xarakterli proqram hər səhər dünənin, bu günün prioritet mövzularına bağlı ziyalılarımızın, politoloqlarımızın, sənət adamlarımızın və s. kimi geniş zümrənin tamaşaçı ilə canlı ünsiyyətini yaradır, aktual problemlərin canlı müzakirəsini təşkil edir. Səhər proqramı və onun aparıcıları peşəkarlıq cəhətləri, respondentə, qonağa son dərəcə rəğbət hissi ilə yanaşmaları, haqqında söhbət gedən problemə jurnalist bələdçiliyi və ziyalı məlumatlılığı ilə diqqət çəkirlər. AzTV-nin "Səhər" proqramı bütün atributları ilə dövlətçiliyə bağlılığını hər an sübut etməkdədir.

Azərbaycan televiziyası dövlətçiliyimizə bağlılığını bütün digər proqram formatlarında da göstərməkdədir. Məsələn, ilk növbədə mədəniyyət tematikasına bağlı "Ovqat" proqramı milli– mənəvi dəyərlərimizi ifadə edən, bu dəyərlərin daşıyıcısı olan sənət adamları ilə peşəkar dialoqlarında belə Vətən sevgisini, vətənə xidmət missiyasını önə çəkməklə tamaşaçıda, xüsusilə gənc nəsildə torpağımıza, elimizə, obamıza məhəbbət hissləri aşılamaqdadır. Bu proqramın istedadlı aparıcısı Nəcibə Əlixanlının dəvət olunan qonaqla səmimi söhbəti, proqramın müsiqili qonaqlarının xalqa bağlı muğam və mahnılarla zəngin repertuarı da "Ovqat"ın milli ruhunu təmin etməkdədir.





Bu televiziyanın fəaliyyəti ilə bağlı vaxtı ilə jurnalistikada öz nəzəri konsepsiyaları ilə bütöv bir məktəb yaratmış mərhum professorlarımız Famil Mehdi, Tofiq Rüstəmov kimi alimlər, müasirlərimizdən professor Yalçın Əlizadə çox maraqlı fikirlər söyləmişlər. Azərbaycan televiziyasının 60 illik yaradıcılıq dövrü və bu günkü səmərəli fəaliyyəti barədə istedadlı telejurnalist Sadıq Elcanlının sevgi ilə qələmə aldığı "Böyük yolun zəfər zəngləri" adlı fundamental məqalələr seriyası bu televiziyanı bizə bir daha sevdirə bildi. Azərbaycan media sistemində öz obyektivliyi və müstəqilliyi ilə seçilən "525-ci qəzet"in 2016-cı ilin sentyabr-oktyabr aylarının hər şənbə buraxılışında dərc olunan bu məqalələrdə müəllif AzTV-ni "Uzaqlardan gələn yollar və taleyimin yurd yeri", "Milli ruhumuzun möhtəşəm məkanı", "Həqiqi vətən eşqi, tükənməz Azərbaycan sevgisi", "Möhtəşəm "poeziya" telekarvanı" sərlövhələri ilə həqiqi qiymətini vermiş, bizi bir daha milli televiziyamızın tarixinə, çağdaş xidmətlərinə yönəltmişdir.

Biz AzTV-nin ictimai-siyasi hadisələrə fəal reaksiyasını onun gündəlik fəaliyyətində görməkdəyik. 2018-ci il aprelin 11-də ölkəmizdə keçirilən Prezident seçkiləri xalqımız üçün talüyüklü ictimai-siyasi hadisə oldu. AzTV seçkilər ərəfəsində bu seçkinin xalqa, millətə hansı yeniliklər gətirəcəyini, ölkə əhalisinin düzgün seçim etməsinin taleyüklü bir məsələ olduğunu çox maraqlı proqram formatları ilə tamaşaçıya çatdırdı. Bu proqramları diqqətlə izləyən hər kəs AzTV-nin tam obyektiv, tərəfsiz, ədalətli, balanslı mövqeyini yaxşı gördü. Azərbaycan xalqının seçiminin elan olunmasından sonra əhalinin sevinc dalğalarını, yenidən Prezident seçilən İlham Əliyev və xalq birliyinin bütün məqamlarını işıqlandıran bu kanal savadlı ekspertlərin və bacarıqlı aparıcıların fəaliyyəti sayəsində yenə də azərbaycançılıq ideyalarına sədaqətini göstərdi.

## ƏDƏBİYYAT


1. Əlibəyli E. Televiziya nəzəriyyəşinin əsasları. Bakı, Elm, 2011, səh.157-158
2. Əsgərzadə Q. Teleməkanımızın flaqmanı. Paralel.az gündəlik elektron qəzet. https:/paralel.az
3. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, Zərdabi LTD, 2016, SƏH.208
4. www.aztv.az